

*“Azərbaycan” qəzetinin 291-ci nömrəsinin 1-ci səhifəsi*





**Cümə axşamı, 9 oktyabr 1919-cu il, nömrə 291**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 14 məhərrəmül-haram sənə 1338. 9 təşrini-əvvəl 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 2 manat 50 q.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

**ELAN**

1919 sənə oktyabrın 9-da pəncşənbə [cümə axşamı] günü gündüz saat 11-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

*T-278*

**SİRK “MODERN”**

Pəncşənbə günü oktyabrın 9-nda 1919-cu ildə təzə gələn artist və artistkaların qastrolu olacaqdır. Məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə təşkil edilmiş Fransa güləş mübarizəsinin mabədi.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Qara Maska – Staroşvili.

2-nci: Buyvolov – Ciovani.

3-ncü: Gənc Əli – K. Muznik.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də, qurtaracaq 12-də. Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

*11432*

**ELAN**

Azərbaycan Dövlət Teatrosu müdiri Qulamrza Şərifov elan edir ki, Maarif nazirinin binagüzarlığına [sərəncamına] görə, bu gündən etibarən türk drama, opera, operet tamaşaları dövləti olacaqdır. Müahidə əqd edib [müqavilə imzalayıb], dövləti xidmət şəraiti ilə aşna olmaqdan ötrü artist və artistkalar şənbə günü oktyabrın 11-də səhər saat 11-də Dövlət Teatrosuna təşrif gətirsinlər.

*Müdir: Qulamrza Şərifov*

**QİSMİ-RƏSMİ**
**[RƏSMİ HİSSƏ]**

**Azərbaycan Cümhuriyyəti Post və Teleqraf Nəzarətindən**

20 eylül [1]335

Əmrnamə nömrə 96

Sabiq 2-ci dərəcəli Posta və Teleqraf məmuru Məhəmməd bəy Qasımbəyov həmin eylül ayının 30-cu günündən Bakı Mərkəzi Teleqrafxanasına müdir müavini təyin olunur.

Əmrnamə nömrə 97

Sabiq müəllimə Fatma xanım Hacınski təşrini-əvvəlin [oktyabrın] 1-ci günündən təyin olunur mənim dəftərxanama kargüzar və ona mühəvvəl olunur [tapşırılır] mütərcimlik vəzifəsi.

Əmrnamə nömrə 98

Mənim dəftərxanamın kargüzarı Rəsul Rəhimli öz ərizəsinə görə, məmuriyyətdən və vəzifəsindən kənar olunur təş-rini-əvvəlin birinci günündən.

*Posta və Teleqraf naziri:*
*Camo Hacınski*
*Dəftərxana baş müdiri: Blajevski*

**Azərbaycan Cümhuriyyəti Türüq-Məabir Nəzarəti**

Əmrnamə nömrə 107

4 sentyabr 1919, Bakı

Azərbaycan dəmiryolunun mühafizə müdiri müavini Osman bəy Mirzəbəyov xidmətə daxil olduğu gündən öz xidmətində sədaqət və ciddiyyət göstərmişdir. Onun fəaliyyətinə görə, xidmət namından Mirzəbəyova razılıq izhar etməyi kəndi vəzifəm əדd [hesab] edirəm.

*Yollar müdiri və müvəqqət dəmiryol general-qubernatoru mühəndis:*
*T[eymur] M[əlik]Aslanov*
*Əslinə mütabiqdir*
*Kargüzar (imza)*

**Məşixətdən [Şeyxülislamlıq İdarəsindən]**

Əmrnamə 32

Quba qəzasının İbrahimhaput prixoduna Aşağı Talabı əhli Molla Fəttah Hacı Məhəmməd əfəndi oğlu molla təyin edilmişdir.

Əmrnamə 33

Şamaxı qəzasından Ərəbuşağı prixoduna Cəmcəm[li] əhli Molla Gülməhəmməd Ağaməhəmməd oğlu molla təyin edilmişdir.

*Məşixət sədrləri:*
*[Mustafa] Əfəndizadə,*
*[Axund Ağa] Ağaəlizadə*

**RUSİYA ƏHVALI**

Rusiya işlərinin surəti sanki bəlli olmaq üzrədir.

Sovetski hökumət ilə Denikin, Kolçak və sairələri arasında indiyə qədər davam edən müharibədə kimin qalib və kimin məğlub olacağını təxmin etmək bu günə qədər çətin idi. Kolçakın bolşeviklər tərəfindən yediyi həzimətlər [məğlubiyyətlər], Denikinin bolşeviklər üzərindəki müvəffəqiyyətləri ilə təlafi edilməklə [əvəzi çıxılmaqla], vəziyyəti-ümumiyyə [ümumi vəziyyət] dəyişməyirdi. Bolşeviklər də müqabil tərəfdə bir tərəfdən basıb, digər tərəfdən basılmaqla hər iki tərəfin hal və övzası [vəziyyəti] tərazu [tərəzi] gözləri kimi ələssəviyyə [taraz; bərabər] idi.

Lakin bu günlər ərzində vüqu bulan hadisələr, yəni bolşeviklərin cənub tərəfdən düçar olduqları böyük həzimətlər və bu həzimətlər dolayısı ilə sövqülceyş [stratejik] nöqteyi-nəzərindən pək əhəmiyyətli sayılan bir çox yerlərin əldən getməsi, baxüsus [xüsusilə], ümdə istinadgah olan Moskvanın süqutunu təhdid edən təhlükə bolşeviklər halını fəna bir vəziyyətə qoyub aliheyi-hərbin [hərb ilahəsinin] müqabil tərəfə ruyi-himayət döndərdiyini [üz çevirdiyini] göstərmək üzrədir.

Hal və övzalarının [vəziyyətlərinin] fəna və təhlükəli olduqlarını bolşeviklər özləri də etiraf etməkdə və ona görə də cürbəcür çarələr aramaq təşəbbüslərinə girişməkdədirlər.

Taleyi-hərbin o tərəf və ya bu tərəfə dönməsi mövcud şəraitin müsaidəsinə bağlıdır. Doğrudur, bu yolda lütfi-təsadüf dəxi hərb taleyini o tərəf və ya bu tərəfə





döndərəcək bir amil mahiyyətini haiz ola [daşıya] bilər. Fəqət böylə təsadüflər nüdrətən [nadir hallarda] vüqu bulan bir şeydir. Əsl mətləb tərəfeynin [hər iki tərəfin] hamil [malik] olduğu şəraiti-mövcudənin müsaid və qeyri-müsaidliyindədir.

Birini qalib və digərini məğlub halına salan bu şərtlər isə hər tərəfin daxili və xarici vəziyyətindən törənər. Əgər daxili və xarici vəziyyət müsaidkar isə, müsaid şərtlər törənər, vəilla [yoxsa] iş əksinə olar.

Həman hər tərəfdən əhatə olunmuş, hər yerdən yolları kəsilmiş, mənabeyi-həyat [həyat mənbələri] ədd [hesab] ediləcək bir çox yerlərdən əli üzülmüş olan bolşeviklərin daxili işləri getdikcə fənalaşmaqda idi. Aclıq, əmrazi-sariyyə [yoluxucu xəstəliklər], bunun üzərinə əlavə olunan sui-idarə [pis idarə], zalımanə rəftar, ədalətsiz işlər, bunlar hamısı bolşeviklik daxilini hərc-mərc bir hala salmaqda və bu halın fənalığı getdikcə tərəqqi etməkdə idi.

Müqabil tərəfin daxili vəziyyəti isə müntəzəm deniləcək dərəcədə deyildisə də, hər halda binnisbə [nisbətən] yaxşı idi.

Xarici vəziyyətə gəlincə, bu xüsusda Denikin və kolçakların işləri bolşeviklərinkindən neçə qat müsaidəkar olduğunu bilmək üçün yalnız bu kafidir ki, bolşeviklərə tərəfdar olan ancaq bolşeviklər özləri idi. Halbuki bütün "Antanta", yəni qalib dövlətlər Denikin və Kolçaka müzahirət [köməklik] göstərib nəinki yalnız bir mal, azuqə, sursat, hətta can ilə də kömək verməl期ərində bu günə qədər davam edirlər.

İbtidada [başlanğıcda] bolşeviklərin dəxi ümid nəzərləri Yevropa tərəfində olub, özləri üçün kömək gözləməkdə idilər. Lakin gözlədikləri kömək maddi və cismanidən artıq, mənəvi kömək idi, yəni bolşeviklər bu zəndə idilər ki, Yevropa dövlətlərinin millətləri, baxüsus, sosialist firqələri dəxi öz məmləkətlərində bolşevikvari inqilablar törətməklə Rusiya bolşeviklərinə müzahirət göstərib hər bir maneləri məhv və imha [tələf] edərlər.

Məğlub dövlətlərdən Almaniyada vaqe olan "Spartak" və Macarıstandakı bolşeviklik hərəkatı rus bolşeviklərinin ümidlərinə o dərəcə cəsarət vermişdi ki, artıq bütün dünya bolşevik olacaq deyə özözlərinə təminat verməkdə idilər. Kolçak həzimətlərinə təsadüf edən o zamanlarda rus bolşeviklərinin ruhu yüksək və başları da qürurla dolu olduğundan, heç nəyi və heç kimsəni belə tanımaq istəməyirdilər. Böylə zənn olunurdu ki, heç bir qüvvət və heç bir cümhuriyyət bu bolşevikləri təqib edə gəldikləri məsləklərindən döndərə bilməz və bunlar məsləklərinə toxuna bilən heç bir "kompromis" və ya başqa bir növ etilaflara [razılaşmalara] ruyi-riza göstərməzlər [razılıq verməzlər].

Bolşeviklərin heç nəyinə inanmasaq da, heç olmasa məsləklərindəki səbat və istiqamətlərinə [inadkarlıq və dönməzliklərinə] bir növ qənaətimiz var idi. Lakin bu axırkı həvadis [xəbərlər] dolayısilə bu qənaətin də yanlış olduğunu etirafa məcburuq.

Əvvəlcə hər kəsə meydan oxuyan, heç bir kompromisə razı olmayan, heç bir növ etilaf, müahidə [saziş] və şərtə meyl göstərməyən bolşeviklər, Yevropa millətlərinin bolşevikliyə rəğbət və həvəsindən və əlhasil müzahirətindən məyus olub və taleyi-hərbin bunlardan üz dön-

dərdiyini görüb nə edirlər? Nə kimi çarələrə təvəssül [müraciət] edirlər?

Hər kəs ilə hər bir etilafa girməyə, şərtlər bağlamağa və hər növ güzəştlərdə bulunmağa razı və hazır olduqlarını elan edib, böylə hallarda mötad [alışılmış] olan ən adi çarələr təvəssütünə [vasitəçiliyinə] əl aparırlar. Kapitalist dövlətlər ilə müahidə əlaqələrinə girməyə və Rusiyadan ayrılmış olan yeniyetmə dövlətlərin istiqlalını tanımağa razı olurlar...

Qərəz, məqsədimiz bolşeviklərin fəlakətlərinə qarşı zəhrxəndəlik [istehza etmək] deyildir; ancaq səbati-məslək və istiqamət məzaclarında [xasiyyətlərində] heç bir fövqəladəlik olmadığını bildirmək idi. Çünki əgər bugünkü "güzəştlər" gələcəkdəki "müvəffəqiyyətlər" xatirəsi üçün isə, bunda da bir fövqəladəlik olmayıb, ən adi və ələlamya cari [ümumiyyətlə baş tutan] bir politika yoludur.

Əsl mətləb bundadır ki, bolşeviklərin məğlubiyyət və süqutu və irticapərəst denikinçilərin müzəffəriyyət və süudu [qələbəsi və yüksəlişi], Rusiyadan ayrılmış və elani-istiqlaliyyət etmiş olan yeni cümhuriyyətlər üzərində nə növ təsir icra edə bilər?

Bu təsirin fənalıq və ya eyiliyi, yaman-yaxşılığı denikinçilərin yeni cümhuriyyətlər haqqındakı məslək və münasibətinin müsbət və ya mənfiliyinə mərbutdur [bağlıdır].

Denikinçilərin bu yoldakı məsləki müəyyəndir və bu müəyyən məslək mənfidir. Öylə olan surətdə, bunlar istiqlalımızın bədxahıdırlar. Bədxahlarımızın müvəffəqiyyət və müzəffəriyyəti bizə və başqa yeni doğma cümhuriyyətlər üzərində hüsn-təsir [yaxşı təsir] buraxa bilərmi?

Ancaq burası var ki, iş əksinə olsa idi, yəni bolşeviklər basıb, denikinçilər basılsa idi, bunun da bizim üzərimizdə hüsntəsiri olmazdı. Çünki denikinçi Podşibyakin "Vahid Rusiya Bakısız yaşayammaz" dediyi kimi, bolşevik Nərimanov dəxi "Sovetski Rusiya Bakısız yaşayammaz" deyir və bu gün onların da, bunların da dil dəyişdirmələri, yəni bizə guya "xeyirxah" görünmək istəmələrinin adi bir politika olduğunu gözəlcə bilirik.

Odur ki, bu məqamda "Hər tərəf küştə şəvəd mənfəəti-islam əst" demək olmaz, çünki bu müharibl ərdən [döyüşən tərəflərdən] hankı birisi qalib gələrsə, düşmənini basandan sonra bizim üzərimizə gəlməyi və "üsyançı" olmaq, "sərkeşlik" [dikbaşlıq] etməyimizə görə cəzamızı verməyi sıradakı vəzifəsindənədd [hesab] edəcəkdir.

Əgər Rusiya bolşevikləri bu gün bizə dedikləri sözləri ki, "Biz heç kəsin yerini əlindən almaq istəməyiriz" özləri üçün əvvəldən bir şüar ədd edib də əsir millətlərin istiqlalını mərdi-mərdanə tanımış olsa idilər, şübhə yox ki, bugünkü zərurət məqamında böyük müzahirətlər görmüş olardılar. Lakin vaxtında bunu etmədilər, biləks [əksinə] istiqlal əvəzində xarabazarlar vəd edib də qatı imperializm yolunu ixtiyar etdilər.

Bugünkü vəzifəmiz Rusiya işlərinə kənardan baxmaq və Rusiya daxilində vaqe olan hadisələrə qarşı bitərəf qalmaqla bərabər, oradan bizi təhdid edən təhlükələrdən özümüzü qorumaqdır. Yeni cümhuriyyətlərdən Azərbaycan olsun, Gürcüstan olsun, Ukrayna, Litva, Estlandiya [Estoniya], Finlandiya, qərəz, özgə bir məqsəd təqib edən Ermənistandan





başqa bütün hamısının fikri ancaq budur: Rusiya işlərinə qarışmamaq və Rusiya təhlükəsindən qorunmaq. Təhlükə bolşevik tərəfindənmi və ya Denikin tərəfindən vaqe olacaqmı, bizdən ötrü təfavüt yoxdur – qorunmaq və hər bir vasitə ilə istiqlalımızı mühafizə etmək! Vəssalam.

*Hacıbəyli Üzeyir*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Azərbaycan radio mövqifi tərəfindən alınmışdır)*

*(Bolşevik xəbərləri)*

**Denikin və Müttəfiqlər**

Moskvadan xəbər verilir ki, Denikin ilə İngiltərə və Fransa dövlətləri arasında mal mübadiləsi başlanmışdır. İngiltərə və Fransa imperialistləri Denikinə silah verməkdədirlər. Denikin isə əvəzində onlara taxıl göndərir. Təzədən xəbər alınmışdır ki, İstanbul təriqi [yolu] ilə Denikin üçün 90 min tüfəng gətiriləcəkdir.

**Polşada bolşevizm**

Polşada bolşevik hərəkatı müşahidə edilir. Polşada olan sosialist firqələri ən sol kommunistlərlə işləyirlər.

**Müharibə neçəyə tamam olmuşdur**

"K. j." qəzetəsi xəbər verir ki, Parisdə Vəkillər Palatası iclasında Maliyyə naziri Klots müharibənin 1092 milyard franka baliğ olduğunu [çatdığını] söyləmişdir. Bu hesabla Fransa 145 milyard, İngiltərə 180 milyard, Amerika 144 milyard və Rusiya 94 milyard sərf etmişdir.

**Beynəlmiləl mitinq**

Çelyabinsk şəhərində böyük bir beynəlmiləl mitinq olmuşdur. Bu mitinqdə madyar [macar], alman, çex-slav, rumın və polyaklar iştirak etmişlərdir. İrad edilən [söylənən] nitqlərdən sonra Qırmızı ordu səflərinə [sıralarına] daxil olmaq qərarı çıxarılmışdır.

**Xarkovda**

Xarkovda dəri işlərində işləyən əmələlər [fəhlələr] tətil edib məvaciblərinin artmasını və müştərək müqavilə əqd edilməsini [kollektiv müqavilə bağlanmasını] tələb edirlər.

**Kiyev həyatı**

"V. v." qəzetəsinin verdiyi məlumata görə, Kiyevdə şiddətli aclıq başlanmışdır. Unun pudu 4 min manat, yağın girvənkəsi 600 manat, piy 700 manat, yumurtanın onu 220 manatdır.

**Rostovda**

Qəzetələrin verdiyi xəbərlərə görə, Rostovda sərpmə yatalaq xəstəliyi vardır. Əhalinin bir çoxu həlak olmaqdadır.

**Petlyura və Polşa**

Petlyuranın əmrinə görə, Ukrayna əsgərləri Proskurov və Podolya rayonlarını tərk etmişlərdir. Bu rayonların əksər əhalisi polyaklardır. Polşa hökuməti Volında olan şəhərlərdən bir neçəsini ukraynalılara güzəşt etmişdir. Ukrayna heyəti Varşavadan çıxmışdır.

**Arxangelskin təxliyəsi**

Şimali Rusiyanı tərk etməkdə olan əcnəbi heyətlər, ələlümdə [başlıca olaraq] İngiltərə heyəti axırıncı vaporla [gəmi ilə] Arxangelskdən əzimət etmişlərdir [yola düşmüşlər].

**Denikin qərargahı**

Denikin qərargahının Taqanroqa nəql ediləcəyi xəbər verilir.

**Ukraynada**

Ukraynada kəndlilər arasında Denikin əleyhinə həyəcan artmaqdadır. Nəşr edilən intibahnamələrdə [vərəqələrdə] deyilir ki:

*"Denikin işğal etdiyi yerlərdə istihzari-əsgəriyyə [hərbi çağırış] elan edib 15 yaşından 50 yaşına qədər olanları əsgərliyə alır. Hətta 14 yaşında olanlar işləmək üçün cəbhəyə göndərilirlər. Denikin işğal etdiyi yerlərdə ancaq mülkədarlar ağalıq edirlər. Bizim xilasımız qalibiyyətimizdədir."*

**Şimali Rusiyada**

İngiltərə imperialist hökuməti əmələ sinfinin təkidinə görə öz əsgərlərini Rusiya şimalından aparmağa məcbur olmuşdur. Tezliklə Arxangelsk bizim olacaqdır. Litva, Latviya və Estoniya hökumətləri əhalinin təkidatına görə, Şura hökumətinin sülh təklifini qəbul etməyə məcburdurlar.

**Amerikada böyük tətillər**

450 min nəfər dəmiryol, bəhriyyə [dənizçilik] kompaniyaları və anbar əmələləri əvvəlcədən tətil edənlərə qoşulub ya əşyanın ucuzlanmasını və yaxud məvaciblərin artmasını tələb edirlər. Dəmiryollar Baş müdiri dəmiryol əmələləri nümayəndələrini müşavirə üçün Vaşinqtona dəvət etmişdir.

**Litva və bolşeviklər**

Londondan xəbər verirlər ki, Sülh Konfransında olan Litva heyəti xəbər vermişdir ki, bolşeviklər Litva cəbhəsində məğlub edilmişlərdir. Bolşevik hökuməti Litvaya sülh təklif eyləmişlərsə də, Litva ordusu hücuma davam etməkdədir.

**Moskvanın təxliyəsi**

Tiflisdə nəşr olunan "Q. D." qəzetəsi "Y. F." qəzetəsindən iqtibasən yazır ki, general Mamontov ilə polkovnik [Filipp Kuzmiç] Mironovun müvəffəqiyyətinə görə, bolşeviklər Moskvanı Samara, Orenburq tərəfi ilə Türküstana köçürmək niy-yətindədirlər.

Zaqafqaziyanı və Şimali Qafqazı işğal etməkdən ötrü plan hazırlanmışdır. Bundan əlavə, İranda və Əfqanıstanda İngiltərə əleyhinə üsyan qaldırmaqdan ötrü bolşeviklər mübəlliğlər göndərmişlərdir.

**Tsaritsında tətil**

Moskvadan xəbər verilir ki, Tsaritsında Denikinin əhalini əsgərliyə dəvət etməsinə cavab olaraq fabrika və zavodlarda ümumi tətil başlanmışdır. Tramvay, su yolu və elektrik işləməyir. 150 nəfərdən ziyadə mütəxəssis əmələ həbsə alınıb bir çoxu güllələnmişdir.

**İngiltərədə tətil**

İngiltərədə tətil artmaqdadır. Dəmiryol Əmələləri İttifaqı hökumət tərəfindən təklif edilən sazişi rədd etmişdir.





**Vilson xəstələnmişdir**

Vaşinqtondan xəbər verilir ki, təbiblərin dediyinə görə, Vilsonun səhhəti təhlükəlidir. Vilsonun əsəbləri pozulmuşdur. Vilsonun qızı atasının yanına dəvət olunmuşdur.

**Qaradağda**

Qaradağ oblastlarını işğal edən Serbiya əsgərləri ilə Qaradağ əsgərləri arasında neçə həftədir müharibə davam edir.

## SÜLH XƏBƏRLƏRİ

**Yevropa sülhü**

Sülh müahidənaməsinin [sazişinin] qüvvəyə girməsindən ötrü Sülh müahidənaməsini beş müəzzəm [böyük] dövlətlərdən əqəllən [ən azı] üçünün təsdiq etməsi lazım gəlir. İndi isə Sülh müahidənaməsi İngiltərə və Fransa tərəfindən təsdiq edildiyindən, Yevropada sülhün bərpa edilməsi Yevropa dövlətlərindən başqa Yaponiya ilə Amerikanın təsdiq etmələrindən asılıdır.

**İzmir haqqında Türkiyə notası**

Türkiyə hökuməti Sülh Konfransına bir nota vermişdir. Notada deyilir ki, Türkiyə hökuməti Aydın və İzmir tərəfdə baş verən vəhşiliklər haqqında, həmçinin Fransa, İngiltərə və İtaliya anket komissiyalarının nəticəsini xəbər verəcək "Bəyaz kitab" hazırlamaqdadır.

**Avstriya müahidənaməsi**

Romadan xəbər verirlər ki, kralın əmri mövcibincə [əmrinə əsasən] Vükəla Şurasının [Nazirlər Kabinetinin] bugünkü iclasında Avstriya Sülh müahidənaməsi [sazişi] təsdiq ediləcəkdir.

**Amerika Senatında**

Vaşinqtondan xəbər verirlər ki, Amerika Senatı Sülh müahidənaməsində [sazişində] birindən başqa hamı qeydləri rədd etmişdir. İclaslar təxirə salınmışdır. İclaslar başlandıqda qəbul edilən maddə müzakirə ediləcəkdir. Bu maddə Amerikanın müharibə zərərlərini təyin edici komissiyada iştirak etməsi məsələsi ilə əlaqədardır.

**Sülh müahidənaməsi əleyhinə**

Nauendən xəbər verirlər ki, Peru şəhərində olan Sosialist firqəsi Versay Sülh müahidənaməsi [sazişi] əleyhinə protesto elan etmişdir. Məzkur [adı çəkilən] firqə Beynəlmiləl Sosialist firqəsinin sülh əleyhinə olan protestosuna şərik olub, ədalətli bir sülh bərpa edilməsi üçün Cənubi Amerika əhalisi arasında hərəkət qaldırmağa dəvət edir.

**Cəmiyyəti-Əqvam**

Klemanso Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] Şurasının tezliklə birinci iclası[nın] dəvət edilməsini izhar eyləmişdir [bildirmişdir].

Norveç hökumətinin Cəmiyyəti-Əqvama daxil olması məsələsinə məşğul olan komissiya müttəhidül-qövl [yekdilliklə] Norveç hökumətinin Cəmiyyəti-Əqvama daxil olmasına tərəfdardır.

İsveçdə isə əfkari-ümumiyyə [ictimaiyyət] Cəmiyyəti-Əqvam əleyhinədir.

## MÜXTƏLİF XƏBƏRLƏR

*(Teleqraflardan)*

**Bolşeviklər və Baltik hökumətləri**

Finlandiya mətbuatı xəbər verir ki, Rusiya bolşevikləri ilə Baltik sahili hökumətləri arasında müzakirat tamamilə qət edilmişdir [kəsilmişdir].

**Polşa və Litva**

Polşa ilə Litva hökumətləri arasında davam edən müzakirat heç bir nəticə verməmişdir. Polyaklar Litva əsgərlərinin xətti-fasilə [ayırıcı xəttə] çəkilmələrini tələb edirlər. Litva hökuməti isə qəti surətdə bunu qəbul etməyir.

**Ali Şura və Macarıstan**

Parisdən xəbər verirlər ki, Ali Şura [Stefan] Fridrix hökumətini təsdiq etməyi və Sülh müahidənaməsini [sazişini] ona təslim etməyi təhti-qərara almışdır.

**Şura hökumətinin ablukası**

Versaydan verilən xəbərlərdə deyilir ki, Ali Şura Rusiya Şura hökumətinin ablukada [blokadada] qalmasını və ərzaq şeylərinin Rusiyaya aparılmasına mümaniət [maneçilik] göstərmək üçün ittixaz edilən [görülən] tədbirlərin öz qüvvəsində davamını lazım görmüşdür.

**Yuxarı Sileziya muxtariyyəti**

Yuxarı Sileziya nümayəndələri ilə Prussiya Şurası nümayəndələri arasında vaqe olan müzakirat əsnasında məzkur [adı çəkilən] vilayətə muxtariyyət verilməsi təsvib [təsdiq] edilmşdir.

**Finlandiya və bolşeviklər**

"O. S." qəzetəsi xəbər verir ki, Rusiya Şura hökumətinin sülh təklifini müzakirə etməkdən ötrü Baş nazir Vennola Seym fraksiyası nümayəndələrini dəvət etmişdir. Hökumət əzası [üzvləri] Şura hökuməti notası ilə Finlandiya, Litva və Latviya nümayəndələri Şurası haqqında məlumat vermişlərdir. Bu axırıncılar müttəhidül-qövl [yekdilliklə] etiraf etmişlərdir ki, Finlandiya xüsusi bir vəziyyətdədir. Çünki onun istiqlaliyyəti təsdiq edilmişdir və onun idareyi-örfiyyəsinin [hərbi rejiminin] əhəmiyyəti yoxdur. Çünki onların rəyincə bu hökumətlər Rusiya Şura hökuməti əleyhinə müttəhid [birgə] çıxmalıdırlar. Nəinki Baltik hökumətləri ilə, bəlkə müəzzəm [böyük] dövlətlərlə müttəhid hərəkət etməlidir.

**Yeni hökumət**

"Tayms" qəzetəsinin verdiyi məlumata görə, Harbində [Qriqori Mixayloviç] Semyonov təhti-idarəsində [rəhbərliyi altında] təşkil olunan müstəqil hökumət hərəkatına müavinətdən ötrü Moğolistanın uzaq yerlərinə Pekindən iki min Çin əsgəri göndərilmişdir.

## TÜRKİYƏDƏ

**Müttəfiqin təhqiq heyətinin İzmirdəki fəaliyyəti**

"Jurnal d'Orient" qəzetəsinin İzmir müxabiri Müttəfiqin [Müttəfiqlər] Təhqiq Komisyonunun fəaliyyəti haqqında bərvəchi-ati [aşağıdakı kimi] məlumat verir:

*"Keçən məktubumda bildirdiyim kimi Müttəfiqin Təhqiq Heyəti bazar ertəsindən etibarən vəzifəsinə başladı. İctimalar [yığıncaqlar] hökumət tərəfindən komisyonun əmrinə tərk edilən sultani [lisey] binasında əqd edilir [baş tutur]. Bu həftə içində müzakiratdan hüsula gələn ilk nəticə İngiltərə namına [adına] Peterson, İtaliya namına Riççi, Fransa namına Sabunçuoğlundan mütəşəkkil bir komisyonun təşkilidir. Bu komisyon İzmir və Aydında yunan işğalından dolayı mütəzərrir olan [zərər çəkən] Etilaf [Antanta] təbəəsinin zərər və ziyanını təhqiq edəcəkdir. Bundan maəda [bundan başqa], Bələdiyyə rəisi ilə iki yunan ədliyyə məmurundan mütəşəkkil bir komisyon türk və yunan təbəəsinin şikayətlərinin təhqiqinə məmur edilmişdir. Bu iki komisyon Müttəfiq Təhqiq Heyətinə son vəqaye [hadisələr] üzərinə təhəddüs edən [meydana gələn] zərər və ziyanlar haqqında müfəssəl və ətraflı birər rapor [raport] verəcəkdir.*

*Heyət məsaisini təqibən [işini qurtarandan sonra] gələcək həftə, vaxtilə o qədər şən bir şəhər ikən şimdi türk və yunan qüvvətlərinin müsadimələri [toqquşmaları] üzündən Bondi çölünə dönən Aydına gedəcəkdir. Türk əhali arasında İzmir məsələsi haqqında nikbinanə bir təhəvvüli-əfkar vardır [fikir dəyişikliyi]. Türk mətbuatı, başda "Köylü" olmaq üzrə İzmirdə bir ingilis mandası lehində nəşriyyatda bulunurlar.*

*Təhqiq heyətinin Aydın vilayətindəki müxtəlif ənasirin [ünsürlərin; xalqların] mütalibatını [tələblərini] istemaya da [dinləməyə də] səlahiyyəti varmı? Bu tikanlı məsələdə intizar edilən hadisati-siyasiyyə zühura gələr-gəlməz bu nöqtə də anlaşılmış olacaqdır."*

2 eylül [sentyabr] tarixli "Tan" qəzetəsindən:

*"İzmirdən gələn məlumata görə, yunan işğalı zamanında təhəddüs edən vəqayeni [meydana gələn hadisələri] təhqiqə məmur Müttəfiqin [Müttəfiqlər] heyəti məsaisinə ibtidar etmişdir [işinə başlamışdır]. Vəziyyəti-ümumiyyə adil bir nəticeyi-hallə dəstrəs olunacağı [ədalətli bir nəticə əldə ediləcəyi] qənaətini verir. Vilayət daxilində sükun təəssüs etmişdir [sakitlik əmələ gəlmişdir]. İngilis generalı Hambro Aydın və Nazilliyə getmişdir. Həman kamilən təxrib edilmiş olan Aydın şəhərindəki türk məqamatının [məqamlarının] yenidən təsisinə qərar verilmişdir."*

**Sədrəzəm paşanın bəyanatı**

[Damad] Fərid paşa həzrətləri Etilaf [Antanta] dövlətlərinin haqşünaslığından əmin.

Sədrəzəm paşa [Baş nazir] İstanbuldakı "Ajans Havas" müxabirinə [müxbirinə] atidəki [aşağıdakı] bəyanatda bulunmuşdur:

*"Mütarikənin əqdini mütəaqib [Atəşkəs imzalandıqdan sonra], intizar edildiyi vəchlə [gözləndiyi kimi], məğlub məmləkətlərdə, bilxassə Avstriya-Macarıstan və Almaniyada iğtişaşat baş göstərdi. Yalnız Türkiyə Fransa və İngiltərənin ənənəvi ədalətinə və rəis Vilsonun 14 maddəsindən mülhəm olan [ilham alan] bir Məclisi-Ali müqərreratının [qərarlarının] ən yüksək qəvaidi-haqqa [ədalət qaydalarına] müvafiq olacağına əmin bulunduğu üçün sakin qaldı.*

*Müzəffər, fəqət hər şeydən əvvəl məfkurəsinə hörmətkar olan Fransa, övladlarının tökdüyü qanın müqəddəs bir hala*

*ifrağ etdiyi [müqəddəsləşdirdiyi] bu qəvaidə [qaydalara] təcavüz etməmək üzrə Ren sahilləri və Saar hövzəsi məsailində [məsələlərində] ən məşru [qanuni] mənafeyini bilatərəddüd [tərəddüdsüz] fəda etmişdir. Bu hal Türkiyənin ümidini təyid edir [gücləndirir]. Türkiyə hər kəsdən əvvəl kəndisinin taəhhüf etdiyi [heyfləndiyi] xətalarına rəğmən, tamamən tətbiqini arzu etdiyi bitərəf ədaləti əldə etmək üçün Müttəfiqlərin haqşünaslığına güvənməkdədir.*

*İzmirin sayani-təəssüf olan [təəssüf doğuran] işğalı türk vətənpərvərlərinin qəlbini alt-üst etmişdir. Bu işğalı məzur [üzürlü] göstərmək üçün fəlakətzədə türklərin böyük bir mücrim [günahkar] olduğunu iddia edən mahiranə iftiralar işaə edildi [yayıldı]. Fəqət həqiqət nəhayət təzahür etmişdir.*

*İğtişaşata yeni iğtişaşat xələf olar [iğtişaşlardan yeni iştişaşlar törəyər]. Hücum müdafiəni tövlid edər [doğurar]. Bu mücadilat əsnasında yağmacılar həqiqi vətənpərvərlərin üstünə keçdilər. Məmafih [bununla belə], daima asayişə tərəfdar olan Osmanlı hökuməti yavaş-yavaş intizamı təsisə müvəffəq olur. Təşvişata səbəb olanlar cəzadidə ediləcəklərdir [cəzalandırılacaqlar]. Daha şimdidən Hərbiyyə nazirinin şədid [şiddətli, sərt] fəaliyyəti sayəsində hərəkati-ixtilalpərvəranə hərəkətlər zəval bulmağa [sona çatmağa] üz tutmaqdadır. Hər halda, Müttəfiqlər arasında heç kimsə Berlini işğal etməyi düşünməmişdir. O halda İzmir və Aydın nədən işğal olunmalıdır?*

*Osmanlı heyəti-mürəxxəsəsinin [səlahiyyətli heyətinin] Parisə övdət etməsini [qayıtmasını] görməkdə istecal edirəm [tələsirəm]. Bu səfər sözümüzün dinlənəcəyinə və müsyö Klemansonun dinləmək istəyəcəyinə və anlaya biləcəyinə qaneyəm. Eyni zamanda, haqşünas İngiltərə və böyük Amerikanın da ədalət və haqqa istinad edən dəlailə [dəlillərə] yabançı qalmayacaqlarını da bilirəm. Mütarikə xeyli zamandır davam edir. Sülhün imzasında vüqu bulacaq təəxxürat [gecikmələr] bütün eyi və müfid əməllərimizə [faydalı niyyətlərimizə] mane olacaqdır. Büdcəmiz zorla təvazün etməkdədir [tarazlanmaqdadır]. Böylə bir vəziyyətə mütəvəkkilanə [təvəkkül edərək, taleyə ümid bağlayaraq] hankı millət təhəmmül edə [dözə] bilmişdir?"*

## İRAN İŞLƏRİ

**Siyasi əhval**

Erməni qəzetələrinin yazdıqlarına görə, Tehranda İran-İngiltərə etilafından [razılığından] narazılıq səbəbi ilə əhali arasında böyük həyəcan və hökumət əleyhinə hərəkat müşahidə olunmaqdadır. İranın indiki Kabinəsinin fəaliyyətindən böyük şikayətlər eşidilməkdədir. Hərəkat getgedə geniş bir dairə almaqdadır. Rəisülvüzəra [Baş nazir] Vüsuqüddövlənin binagüzarlığı [sərəncamı] ilə ümum demokrat təşkilatı və qəzetələri qapanmış, bir çox məşhur xalqçı şəxslər paytaxtdan sürgün edilmişlərdir. Sürgün edilənlərin arasında sabiq nazirlərdən də bir neçə nəfəri vardır. Onlar Kaşana göndərilmişlərdir. Əhali Kabinənin xalq nümayəndələri haqqında bu dərəcə qatı tədbirlər ittixazından [tədbirlər görməsindən] nəhayətdə dilgir olmuşdur [dilxor olmuşdur, incimişdir]. Əhval ciddidir. Hər zaman böyük bir nizamsızlıq vüqu bulacağına ehtimal vardır. Hökumət tərəfindən nizamsızlıq vüqua gətirmək istəyənlərə böyük cəza veriləcəyi elan və intişar edilmişdir [bildirilmişdir].





## "AZƏRBAYCAN"IN BİRİNCİ SƏNEYİ-DƏVAMİYYƏSİ

Məmləkət, millət və vətənimizin nami-müqəddəsi və müşərrəfi [şərəfli vəmü-qəddəs adı] ilə təsmiyə edilib də [adlandırılıb da] müəyyən bir qayə, mübəccəl [qutlu] bir məfkurə ilə intişar edən [nəşr edilən] qəzetəmizin – "Azərbaycan"ın birinci səneyi-dəvamiyyəsi doldu.

Tamam keçən il təşrini-əvvəl [oktyabr] ibtidalarında [əvvəllərində] Gəncədə mövqeyi-intişara çıxan və yenə təşrini-əvvəlin 5-də Bakıda nəşriyyatına davam edən qəzetəmiz, heç şübhəsiz ki, Cümhuriyyət və istiqlaliyyətimizin həyat və mövcudiyyəti naminə xeyirli və faydalı xidmətlər etmiş, əfkari-ümumiyyəni [ictimaiyyəti] idarə, müşkül vəziyyətlər qarşısında camaatımızı mənən zində [canlı] bir halda bulundurub da siyasi bir imanı idamə etməyə [davam etdirməyə] müavinət və təsiri olmuşdur.

Birillik "Azərbaycan" kolleksiyonu tədqiq edilər, nəşr edilən məqalə və felyetonlar bir gözdən keçirilərsə, görünər ki, milliyyət, siyasiyyat, ticarət və iqtisadiyyat və tariximiz haqqında olduqca [geniş] bir məlumat vardır. "Azərbaycan" mühərrirləri böyük bir xülus və safiyyətlə [səmimiyyət və saflıqla] əllərində tutduqları qələmlə ancaq bir hədəf və bir qayəni gözlərinin önündə bulundurmuşlardır ki, o da məmləkətin səlaməti, millətin hürriyyəti-siyasiyyəsi, fikri-istiqlaliyyətin [istiqlaliyyət] qüvvətlənməsidir. Bu üç şüar, bittəb [şübhəsiz], bu gün ümum əfradi-millət [millətin fərdləri] arasında söylənib təkrar edilməkdə və mətbuat isə bunu təqviyə eyləməkdədir [gücləndirməkdədir].

"Azərbaycan"ın birillik səneyi-dəvamiyyəsi köhnə və keçmiş illərin ağır şəraiti-təhririyyə [yazı şəraiti] və az-çox milli bir qayədən məhrum bulunan həyati-nəşriyyəyə [nəşriyyat həyatına] qırmızı bir cizgi çəkmiş, keçmişlə hali-hazır arasındakı siyasi, ictimai, milli hərəkatımız kimi mətbuatımız da gələcəyin tarixi tədqiq və tənqidinə buraxılmışdır. Tarix, əlbəttə, bir millətin həyati-siyasiyyə və istiqlaliyyəsini tədqiq edərkən heç bir xətanı unutmayacağı kimi, heç bir fərdi də məsuliyyətsiz buraxmayacaqdır. Siyasilər siyasi xətalarından, alimlər tənbəlliklərindən, hərbşünaslar yanlış müdafiə tədarüklərindən, camaat da məfkurəsizliyindən, cahil də cəhlindən, halbuki bir millətin mətbuatı və mühərrirləri də xəta və nöqsanları yazmamasından, söyləməməsindən, mənafeyi-millət və vətənə aid düşünməməsindən dolayı məsuldur.

İştə "Azərbaycan"ın birinci səneyi-dəvamiyyəsini biz bu gün qeyd edərkən, bütün mühərrirlər və mütəfəkkirlərimizin də ülvi və həqiqətpərvər bir qayə ilə həyati-təhririyyələrinə davam edərək camaatımız üçün görəcəkləri fikri xidmətin mənəvi mükafat və qədri də, əlbəttə, yaddan çıxmaz.

## YENİ ŞİRVAN CƏMİYYƏTİ-ALİSİNƏ

Mən kəndim kəndliyəm. Fəqət kiçiklikdə təhsilim Şamaxıda olub və Şamaxıda sonralar kəndimə məxsus evim də olduğundan kəndimi şəhərli hesab edirəm.

Şəhərin başına gələn hadisələrin cümləsində iştirak edib, bunların həqiqəti haqqında pək doğru məlumatım var.

Gözəl şəhərimizin bu hadisələr nəticəsi olaraq xarabazara dönməyindən son dərəcə mükəddər [kədərlənmiş] idim. Daima fikrimdə deyirdim: Ya Rəbb, nə zaman müqəddəs vətən təkrar paydar olacaq [dirçələcək]?

Mən bu fikirlərlə uğraşarkən, bu məqsədə doğru varmaq üçün "Yeni Şirvan" cəmiyyətinin təsis olduğunu duydum. Son dərəcə şad oldum. Həyatımın əksər zamanı kənddə keçdiyindən, təbii, böylə bir ali cəmiyyətə bir şey yazammam. Bununla bərabər, cəsarət edərək bəzi fikirlərimi dərmiyan etmək [meydana qoymaq] istəyirəm. Ümid edirəm, mənim bu cəsarətimi əfv buyurasınız.

Cəmiyyəti-ali Şamaxını paydar etmək təşəbbüsünə artıq bir şövqlə girişdi. Hökumət nəzdində ciddi iqdamatlarda [təşəbbüslərdə] bulundu. Bu iqdamatın nəticəsi olaraq hökumət dəxi bu fikrə yanaşdı və məsələni yerində təhqiq etmək üçün Şamaxıya bir komisyon göndərdi. Komisyon dəxi şəhəri yuxarı hissədə tikmək qərarını verdi. Ətrafdan aldığım məlumata görə, hökumət tərəfindən min ev tikilərək əhali arasında paylanacaq. Hər bir vətənini sevən insanın buna sevinməməyi qeyri-qabildir. Fəqət şəhərimizin paydar olmağını tamam varlığım ilə arzu etdiyimdən, bu barədə bəzi mülahizatı bəyan etmək istəyirəm.

Min ev tikilərək əhali içrə tövzi olunmaqla [paylanmaqla], zənn edirəm, şəhər paydar olmaz. Şəhəri paydar etmək üçün ən əvvəl əhalini cəlb etməlidir. Əvvəlcə bunu düşünməli və həll etməli. Öylə bir təşəbbüsatlarda bulunmalı ki, əhali vətəninə övdət etməyə [qayıtmağa] həvəskar olsun.

Doğrudur, hər bir kəs vətənində yaşamağı arzu edər. Bununla bərabər, təmini-həyat məsələsi var. Öylə işlər yapmalıyız ki, tikiləcək olan min ev deyil, pul mənbələri əhalini oraya cəlb etsin. Bu yolda nə etməli? Zənnimcə, faydadan xali [uzaq] olmazdı:

1) Şəhərimizdə əsgər hissələri yerləşdirməli. Bunun şəhər ticarətinə az mənfəəti olmaz. Doğrudur, bu məsələ Hərbiyyə Nəzarətinə aid bir məsələdir. Fəqət vətənimizin, doğrudan da, paydar olmağını arzu ediriksə, rədd cavabı belə almış olsaq, buna təşəbbüs etməliyiz. Zatən əsgər yerləşdirmək üçün şəhərimiz müsaid [əlverişli] bir haldadır. Təmiz hava, gözəl su, hazır qışla [kazarma].

2) Şamaxıda, heç olmasa, ufaq [kiçik] bir fabrika və bəzi masterskoylar bina etməli. Bu yol ilə həm işsiz qalmış qaçqınlar iş bularlar və həm də bunların, əmələlərin parasından istifadə etmək üçün hər bir sinif əhali toplanmağa başlar.

Bunun sübuta belə ehtiyacı yox. Culfa-Ələt dəmiryolunda əmələ pulundan istifadə etmək üçün müxtəlif hirfət [peşə] əhli köçəri dükanlar bina edirlər. Səhralar az bir zaman içrə məmur [abad] olur. Şəxs kəndi vətənində para qazanarsa, qürbətdə kəndisini zəhmətə düçar edərmi? Fabrika üçün Əngəxaran daş kömür mədənindən istifadə etmək olar.

3) Şəhərdə darülmüəllimin [pedaqoji məktəb] və yaxud başqa bir leyli məktəb [internat məktəbi] bina etməli.

4) Əhaliyə Bakı-Şamaxı-Nuxu dəmiryolunun keçiləcəyini vəd etməli.

Şəhərimiz təmir olmaq üçün evə lazım mayehtacları [ehtiyac mallarını] hökumət əhaliyə ucuz qiymətlə verməli. Digər tərəfdən, keçən Mart hadisəsi zamanında olduğu kimi, mühasirəyə düşməmək üçün indidən tədbirlərdə bulunmalı. Zənnimcə, bu qayət mühüm məsələdir. Əgər malakan kəndlərinə baxarsaq, görərik ki, rus hökuməti bunları böylə boyu-boyuna deyil, müəyyən plan üzrə yerləşdirmiş. Bakıdan çıxan əsgər qafiləsi Mərəzə – Qozlu – Qızmeydan – Çuxuryurd və buradan erməni kəndi Meysəri vasitəsilə Mədrəsə ilə birləşib şəhəri mühasirəyə ala bilər və çölü dağ mahalından ayırar. Bu mühasirə xəttini yarmaq üçün lazımdır ki, Meysəri və Mədrəsədə ermənilərlə İrəvan müsəlmanları deyil, yalnız müsəlmanlar yerləşdir[il]məli və Çuxuryurd yerindən köçür[ül]məli.

Ümid edirəm, vətənini paydar etmək kimi müqəddəs bir fikirlə təsis olunan cəmiyyəti-ali bu məsələni müdafieyi-hökumət heyəti-alisi hüzurunda qaldıraraq istədiyimiz surətdə həll olunar.

*Mustafa Şeyxzadə Qaraqoyunlu*

## NƏSİB BƏY HƏZRƏTLƏRİNİN İSTEFASI ƏTRAFINDA

Müdiri-möhtərəm!

Bu günlərdə füqəra sevgilisi olan möhtərəm Rəisi-vükəlamız [Baş nazirimiz] Nəsib bəy Yusifbəyli əfəndinin istefasını eşitdiyimizə görə 1335 18 eylüldə biz Dağlılar (Cibaliyyun) kəndli zəhmətkeşləri mərkəzimiz məsabəsində [yerində] bulunan Sayad Xızı kənd qəryəsindəki ictimamızdakı [kəndindəki yığıncağımızdakı] qəbul olunmuş qərara görə, öylə həqiqi millət və vətən xadimi olan bir zatın [şəxsin] bilxüsus [xüsusilə] böylə bir zamanda məmləkət gəmisinin layiqli bir gəmiçisi olduğunu təqdirlə, istefasının ədəmi-qəbulunu [qəbul edilməməsini] və bu arzumuza nail olmayınca rahat olmamağımızı bəyan ediriz.

*Sədr: (imza)*
*Katib: (imza)*

## AZƏRBAYCAN HAQQINDA TARİXİ, ƏDƏBİ VƏ SİYASİ MƏLUMAT

*(Sabiqki məqalələrə əlavə)*

Azərbaycan Cümhuriyyətinin siyasi vəziyyətindən bəhs edərkən, əvvəlcə bunu qeyd etmək lazımdır ki, onun dövləti tərzdə təşəkkül etmək zamanı bir tərəfdən Cahan müharibəsinin sonu, digər tərəfdən sabiq Rusiya imperiyasının xarab olub bolşevik inqilabı qalxması ilə bir vaxta düşdü. Azərbaycan Cümhuriyyəti də sair dövlətlər kimi bu Cahan müha-

ribəsinin bitməsini gözləyir. Məlumdur ki, həyat tez bir zamanda adi yoluna düşməyəcək. Avropa qitəsi hal-hazırda böyük yanğından çıxmış və tamamilə tüstü və duman səhnəsidir. Yaxın bir zamanda xəritələr dəyişəcəkdir.

Bütün kürreyi-ərzin [Yer kürəsinin] nəzər-diqqəti Cahan konfransını iniqad edən [toplayan] Paris paytaxtındadır. Əcəba, bu konfrans bəşəriyyətin bütün ağır məsələlərini həll edə biləcəkmi? Gələcəkdəki cahangirlik [imperializm] xülyalarına əbədiyyən xitam veriləcəkmi? Konfrans, Cəmiyyəti-Əqvam və Sosialistlər Konqresi bu barədə bir çarə bula biləcəklərmi?

Tərksilah olmaq məsələsindən savayı, Konfransda başqa məsələlər, məsələn dövlətlərin sərhədi çəkilmək və sair mühüm dövləti məsələlər həll ediləcəkdir. Əlbəttə ki, Azərbaycanın taleyi də bu məsələlərin həllindən asılıdır. Azərbaycan milləti səmimiyyətlə inanır ki, böyük Avropa və Amerika mədəni millətlər[i-n]in nümayəndələri bunun hazırda mövcud dövləti istiqlalını [dövlət müstəqilliyini] rəsmən və hüquqən qəbul edəcəklər və onu beynəlmiləl münasibat [beynəlxalq əlaqələr] dövrəsinə keçmək kimi təbii haqdan məhrum etməzlər.

Hərçənd Azərbaycan hənuz rəsmən təsdiq edilməmişsə də, fəqət həm daxilən, həm xaricən müstəqil daxili və xarici həyat dövrəsinə keçmişdir. Böyük Müttəfiq dövlətlər nümayəndələri də Azərbaycan Cümhuriyyətini müstəqil tanıyaraq onunla dostanə əlaqədə bulunurlar. Cahan millətləri ilə dostluqdan bəhs edərkən bunu deməlidir ki, Azərbaycan bu barədə hamıdan yaxşı mövqedədir.

Bir çox yeni vücuda gələn dövlət və cümhuriyyətlərə nümayəndələr göndərilir və oradan da qəbul edilir. Bilavasitə həmsərhəd olduğumuz dövlətlər, yəni İran, Gürcüstan, Dağıstan və Ermənistan cümhuriyyətləri ilə əlaqə pək dostanədir. Ermənistan və Gürcüstan ilə aramızda bəzi mübahisələr olursa da, o da yalnız sərhəd mübahisələridir. Bu növ sərhəd mübahisələri üstündə 1918 sənəsi dekabrında hətta Gürcüstan ilə Ermənistan müharibədə idilər. Azərbaycan Cümhuriyyəti isə müharibə etməmək tərəfdarı olaraq bilirdi ki, bu məsələlər ya Sülh Konfransında, yaxud Qafqaz Konfransında həll ediləcəklər.

Bu sənə aprel ayının 25-də Tiflisdə dəvət edilərək siyasi, iqtisadi və milliyyə məsələləri aydınlaşdırmağa müvəzzəf [vəzifəsi daşıyan] Qafqaz Cümhuriyyətləri Konfransını təbrik etməlidir. Ümid etmək olar ki, siyasi zəka, konfrans əzasını [üzvlərini] yek-digərinə [bir-birinə] güzəştdə bulunmağa vadar edər və mübahisələr rəf olaraq [aradan qaldırılaraq] dostanə əlaqə başlar. Əgər bir məsələni həll edəmməz olursalar, o vaxt qılınc əvəzinə Avropa mədəni millətlərinin vəsatətinə [vasitəçiliyinə] razı olarlar.

Hərçənd Konfransın nəticəsi hənuz müəyyən deyil, fəqət hər halda məsələlər sülh ilə həll olunmalıdır. Məəttəəssüf [təəssüf ki], ermənilər lazımi qədər hövsələ etməyib bəzən qılınca müraciət edirlər.

Burada mən yenə mətləbdən bir az kənar olmaq məcburiyyətindəyəm. Hərçənd ki, mənim bu məqaləmdə mən çox dəfə keçirdiyimiz zamanın tələbi ilə mətləbdən kənar olmuşam.





Bu məsələlərin ən mühümü budur ki, əgər böyük millətlərin arasında narazılıq olarsa, o vaxt onu kim həll edəcəkdir? Əcəba, yenə qılıncmı? Böyük millətlər müharibə edərkən ilahi-hərbin [müharibə tanrısının] oxları balaca millətlərə toxunaraq onları fövt [məhv] edirlər.

Əgər bu məsələ Sülh Konfransında lazımi qətnamələr almazsa, o vaxt insaniyyət bir az zamandan sonra böyük fəlakətlərə məhkum olacaqdır. İnsan əli ilə tikilmiş mədəniyyət yenə ağır toplar ilə dağıdılıb məhv olacaq. Əgər gələcəkdə dövlətlər arasında vaqe olan mübahisələri həll üçün Lahey [Haaqa] Beynəlmiləl Məhkəməsi kimi idarələr ehdas olunacaqsa [yaranacaqsa], o vaxt vay yenə millətlərin halına.

Şimdi öylə bir vaxtdır ki, ümum millətlər gərək birləşib hüquqi-beynəlmiləl yapmalı və ona bir layiqli yer göstərmək lazımdır. Nə qədər ki, hüquqi-beynəlmiləl kəndi qanunlarını azad yaşamağa layiq olan dövlətlərin şəxslərinə əmr edəmməyir, o vaxtadək ümumi bir mədəniyyət artmasına heç bir söz olammaz.

Bu günədək hüquqi-beynəlmiləl bir cildi-qanun [qanun kitabı] kimi hesab olunub da, hər bir dövlət istədiyi zaman onu poza bilərdi. Ya birdəfəlik hüquqi-beynəlmiləli atıb "Ümumun ümum əleyhinə müharibəsi" prinsipini tutmalı, yainki ümumi dövlətlər konfransı olaraq bir beynəlmiləl məhkəmə yapmaq ki, onun qanununa və əmrinə böyük dövlətlər baş əysinlər, ümum cahan dövlətləri kəndi mübahisələrində böylə təşkil olunmuş bir beynəlmiləl məhkəmə qanunlarına tabe olsunlar. Böylə olan zamanda bütün dövlətlər gərək tərksilah olsunlar. Həmişəlik olaraq əsgər saxlanmayacaqdır, yalnız daxildə olan şurişin [iğtişaşın] qabağını almaq üçün bir az əsgər saxlamalıdır.

Həmişəlik olaraq beynəlmiləl əsgərləri təyin olunmuş miqdarda gərək beynəlmiləl məhkəmə təhti-idarəsində [tabeçiliyində] olsunlar. Və o dövlətlər – hansılar ki, bu qanuna baş əyməyəcəklər – ciddi surətdə cəzalanacaqdırlar. Əgər bizim böyük qardaşlarımız Avropa və Amerikanın millətləri böylə bir məhkəmə təşkil olmasına riza versələr və o məhkəməni həqiqi bir qüvvələrlə möhkəmləşdirsələr, onda bəşəriyyət onlardan əbədiyyən razı olar. İnsanlar da yırtıcı heyvanların vəhşi xasiyyətindən həmişəlik olaraq azad olar.

Azərbaycanın siyasi aləmindən bəhs edən vaxt Türkiyənin bu Böyük Dünya müharibəsində ifa etdiyi vəzifəsi xüsusunda bir neçə söz demək lazım gəlir və oxuculara kəndi nöqteyi-nəzərimi söyləmək istərdim və unutmamalıdır o gözəl zərbül-məsəli ki, "Səhv etmək insanın təbiətindəndir" – demişlər.

Mənim nəzərimcə, əgər Türkiyə Rusiya ilə dava etməsəydi, çox ola bilərdi ki, Böyük Rusiya inqilabı bu tezlikdə baş verməyəydi. Rus inqilabı[nın] Azərbaycanın istiqlalına böyük hərəkət verməsi şübhəsizdir. Elə ki, 1914-cü ildə böyük hökumətlər arasında qovğa başladılar, Türkiyə özünün həmişəlik düşməni olan rus cahangirlik [imperialist] hökumətini yıxmaqdan ötrü keçdi Almaniya və Avstriya tərəfinə və Qara dənizin keçidi əlində olmağına görə Almaniyanın qalib gəlməsinə səbəb oldu və Böyük Cahan

müharibəsinin uzanmasına da səbəb oldu. Rus cahangirləri, məmləkəti Rusiyanı halsız bir dərəcəyə gətirdiyindən savayı, türklərin də bu müharibəyə daxil olmaları rus məmləkətinin halını daha fənalaşdırdı və cana doymuş Rusiya əhalisi üç illik Cahan müharibəsinin əziyyətinə davam etməyərək [tab gətirməyərək], inqilab başladı.

Həman inqilabın nəticəsində dünyanın ən müstəbid və yalnız Şərq üçün deyil, hətta Qərb üçün də heybətli cahangirlik fikrinə düşmüş bir hökuməti dağıldı. İnqilabın indiyə kimi görünməmiş olan zəlzələsindən istibdadın imarəti belə çatlar verdi ki, onu heç bir şeylə örtmək mümkün olmadı və onların arasından, tabe olan millətlərin diləyini göstərən dalğalar sel kimi axmağa başlayıb köhnə istibdad yuvalarını basdı. Şübhəsiz elə ki, bu qızışmış dalğalar sakitləşəcək və bu bolşevik bulantısı təkinə [dibə] çökəcək, bir təzə həyat aləmi açılacaq və sosializmin parlaq şəfəqləri o həyatın üstünə düşəcək.

Heç bir vaxt insanın xəyalına gəlməzdi ki, böylə bir az müddətdə bu böyüklükdə rus imperatorluğu çatlayıb, dağılıb zirü zəbər [alt-üst] olacaq. Almaniya rus istibdadını yıxdı və inqilab ortalığa gələndən sonra onu Leninin və qeyrilərinin vasitəsilə bulandırdı və ona görə rus "bolşevizmi" insanı tez yoldan çıxardan vədələrinə görə tamam dünyaya yayıldı. Həman inqilabın qüvvətinə görə Almaniya cahangirliyi [imperializmi] dəxi bir tərəfdən Müttəfiqlərin zərbəsi altında və bir tərəfdən də öz millətinin inqilabi gücündən bərbad oldu. Rusiyadan inqilab keçdi Almaniyaya və oradan Avstriyaya və inqilabın dalğaları coşub, tamam taxt və səltənətləri batırdı.

Almaniyanın cahangirlik fikrinə düşməsi və Krupp zavodları kimi top və silah fabrikalarını artırmağının da səbəbi rus cahangirliyi idi.

Almaniya həmişə Rusiya vahiməsi altında yaşayırdı və ona görə də bir dinarının da qədrini bilən və əfvahi [boşa] xərcləməyən Almaniya milləti kürurlar ilə [yüz minlərlə] hərbi ləvazimata xərc edirdi.

Səbəbi nədir ki, dünənki istəkli və sevgili Vilhelm padşah bu gün tərki-vətənə məcbur olubdur, kiçik bir Hollandaya pənah gətirib.

Napoleonun, Vilhelmin aqibəti bir dəfə də artıq sübut edir ki, müharibəçilik axırı yenə də insanı xoşbəxtliyə çəkməyib fəna bir hala salır.

Məlum olduğu kimi, yüz sənə bundan əqdəm [qabaq] ingilislər məşhur fransız imperatoru və sərkərdəsi olan Napoleonu tutub Sant Helen cəzirəsinə [adasına] sürdülər. Fəqət Firəngistana bir müddətdən sonra cənazəsini gətirə bildilər. İndi də həman ingilislərin övladları Londonda mühakiməyə çəkərək, kim [bilir] hansı gəmini hazırlayıb və hansı cəzirəyə Vilhelmi, məşhur alman imperatorunu atacaqlar.

Demək olar ki, Vilhelmin taxt və tacını itirməyə ən böyük səbəb Rusiya inqilabı oldu. Rus inqilabının dünya üçün nə qədər gözəl nəticə verdiyini ancaq gələcək tarix səhifələrində oxumaq mümkün olar.

Demək olar ki, Böyük Rus inqilabı neçə milyon adamların canını cahangirlik fikrindən qurtarmağa bais oldu.





Tarixin cəfalı hüdudunu millətlər keçib. İndi mədəniyyətin xatiri üçün həyatı qanun altına almaq, iğtişaşı sakit eyləmək və o surətdə ancaq hürriyyət meyvəsinin ləzzətini anlamaq mümkündür. Cahangirlik istibdadının əlindən qurtarmaq üçün Türkiyənin Almaniya və Avstriya tərəfində olub, müharibəyə girişib, rus ilə dava etməsi bütün dünya və aləmi istibdad və cahangirlik fikrindən xilas eylədi.

*(yenə var)*

*Adil xan Ziyadxan*

## ÖLKƏM

Vətənimin çox yerində od yanır,
Küləyindən əhalisi həzz alır.
Onun üçün "Azərbaycan" adlanır,
Məşhurdur "Yanardağı" ölkəmin.

Yatır hər guşəsində min qəhrəman,
Hamı igidlikdə məşhuri-cahan,
Qeyrətli, namuslu, cəsur anadan
Doğulmuşdur hər uşağı ölkəmin.

Badi-xəzan soldurmuşdu həp gülün,
Zülmi-zalım susdurmuşdu bülbülün,
İndi azad görmək olar türk elin!
Göz çıxardır hürr olmağı ölkəmin.

Sancağının bir boyası göy Xəzər,
Bir boyası yaşıl bağlı çəmənlər...
Üçüncü rəngiysə qırmızı azər,
Nə gözəldir, ah, sancağı ölkəmin.

*B. Mürşüd*

## BAKI XƏBƏRLƏRİ

**Parlaman komisyonlarında**

- Azərbaycan Cümhuriyyətində ərazi təşkilatının təsisi haqqında Daxiliyyə Nəzarətindən bir qanun layihəsi göndərilmişdir.

- Eyni Nəzarətdən mənzil, ticarət və digər binalardan mənfəətbərdar olmaq üçün həddi-əzəmi [maksimum] qiymət və şərait təyin edilməsi haqqında bir qanun layihəsi gələrək, Maliyyə və Büdcə komisyonuna göndərilmişdir.

* * *

1) Şuşa şəhərində məccani [pulsuz] olaraq bir hökumət xəstəxanası güşadı [açılması] haqqında; 2) 23 iyunda qəbul edilmiş qanunun Mərkəzi Dəniz tibbiyyə istasyonu məmurlarına aid olması haqqında Səhhəti-Ümumiyyə Nəzarətindən [Səhiyyə Nazirliyindən] birər qanun layihəsi varid [daxil] olaraq Maliyyə və Büdcə komisyonuna göndərilmişdir.

- Eyni Nəzarətdən Bakı Feldşer məktəbinin Səhhəti-Ümumiyyə Nəzarətinin təhti-idarəsinə [tabeçiliyinə] keçirilməyi haqqında bir qanun layihəsi daxil olmuşdur.

* * *

1) Zinət əşyasına təəllüq edib də [aid olub da], xaricdən Azərbaycana daxil olan əmtəə üçün xüsusi müvəqqəti tarifə mövqeyi-tətbiqə qonulması haqqında; 2) Azərbaycan xaricinə əmtəə ixracı xüsusundakı yeni müvəqqəti gömrük tarifəsinin mövqeyi-tətbiqə qonulması haqqında; 3) Meyvə və sairədən məmul [emal edilən] çaxırdan alınan aksizin artırılması haqqında; 4) Bakı Bələdiyyə İdarəsinə beş faizlə on milyon manat borc veril-

məsi və 5) Gəncə şəhərində 1 eylüldən etibarən Azərbaycan Dövləti Bankı şöbəsi güşadı [açılması] haqqında Maliyyə Nəzarətindən birər qanun layihəsi varid olaraq Maliyyə və Büdcə komisyonuna göndərilmişdir.

* * *

1) Şəhərlərdə əmlaki-qeyri-mənquledən [daşınmaz əmlakdan] alınan dövləti vergi xüsusundakı 6 həziran [iyun] 1910 sənəsi nizamnaməsi tətbiqinin şəhər növündə olan qəza məskənləri və qəza yerliklərinə təşmili [şamil edilməsi] haqqında; 2) Qızıl və gümüşün xaricə çıxarılmasının məsuliyyəti haqqında və 3) Dövləti mədaxil müəssisə və dövləti vergilər xüsusundakı qəvaidin [qaydaların] pozulması ilə, yəni cərimələrin müvəqqətən artırılması və cərimə kəsilmiş işlər tətbiqatının təbdili [dəyişdirilməsi] haqqında eyni Nəzarətdən qanun layihələri alınaraq, Ləvayehi-qanuniyyə [Qanun layihələri] komisyonuna göndərilmişdirlər.

Tütün rüsumu nizamnaməsinin təbdili [yenilənməsi] haqqında qanun layihəsi; Bakı gömrükxanası müfəttişi vəzifəsi maaşının artırılması haqqında birər layihə daxil olmuşdur.

* * *

1) Növbətçi mənzil komandanlığını və Ərkani-hərbi-ümumi [Baş qərargah] Topoqraf şöbəsi qulluğu ilə firqə komandanı qulluğunun birləşdirilməsi haqqında; 2) Bakı Mövqe komandanlığı təşkili və ştatı haqqında Hərbiyyə Nəzarətindən birər qanun layihələri gəlib, Maliyyə və Büdcə komisyonuna göndərilmişdirlər.

**Teatromuzun milliləşməsi**

Ümumiyyətlə bədayeyi-nəfisə [incəsənət] və xüsusən teatro işlərini nizama salıb islah etmək və səhnəni rövnəqləndirmək haqqında neçə vaxtdan bəri bəzi təşəbbüsata iqdam edilmişdi [girişilmişdi].

O cümlədən teatroları milliləşdirmək və dövlət ixtiyarına vermək fikri vardı. Maarif Nəzarəti tərəfindən teatroların milliləşməsi haqqında müfəssəl məlumatı havi [ehtiva edən] bir layihə tərtibi teatro müdiri Qulamrza Şərifzadəyə həvalə edilmişdi. Layihə təqdim olunub, dün Nəzarəti-cəlilə [Uca Nazirlik] tərəfindən təsdiq edilmişdir.

**Məhkəməyə cəlb**

Bakı Nahiyə məhkəməsinin müddəiyi-ümumisi [prokuroru] qubernatora məlum etmişdir ki, onun sərəncamı ilə sabiq Kürdəmir məntəqəsi polis müdiri (pristavı) Səlim bəy Heydərbəyov 377, 378, 362 və 447-ci maddələrə müvafiq təhti-mühakiməyə [mühakimə altına] alınmışdır.

**Təyin**

Bakı Nahiyə məhkəməsinin sədri qubernatora məlum etmişdir ki, Balaxanı müstəntiqi Məhəmməd bəy Süleymanbəyov Cavad qəzası qaimməqamı [rəisi] təyin edilməsinə onun tərəfindən mümaniət [maneçilik] yoxdur.

**Dəmiryol əşyasının oğurlanması**

Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri Bakı qubernatoruna məlum etmişdir ki, Bakı-Culfa dəmiryoluna mütəəlliq [məxsus] olub, neçə vaxt bundan əqdəm [qabaq] əhali tərəfindən oğurlanmış olan Bakı-Culfa dəmiryol əşyasının bir hissəsi tapılıb bir yerə cəm edilmişsə də, lakin qaraqol olmadığından, yenidən oğurlanmaqdadır. Buna görə oraya qaraqol təyin edilməsi rica olunur.

**Əlimirzə bəy Nərimanov**

Tiflisdə Müsəlman Milli Şurası sədri Əlimirzə bəy Nərimanov srağagün Milli Şura işləri üçün Bakıya gəlmişdir.

Ertəsi günü Nərimanov əfəndi Rəisivükəla [Baş nazir] Yusifbəyli Nəsib bəy həzrətləri tərəfindən hüzura qəbul edilərək, yarım saatlıq qəbul əsnasında Gürcüstanda müsəlmanların həyat və məişəti haqqında müfəssəl məlumat vermiş və bəzi xüsuslarda, xüsusən Gürcüstandakı müsəlman qaçqınları məsələsində kömək istəmişdir.

Ertəsi gün eyni qaçqınlar məsələsinin həlli üçün Əlimirzə bəy Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] naziri həzrətləri ilə görüşmüşdür. Gərək Rəisi-vükəla və gərəksə Ümuri-Xeyriyyə və Nafiə naziri həzrətləri ilə görüş pək səmimi olub, Milli Şura rəisi cənablarına hüsn-təvəccöh ibraz edilmiş [göstərilmiş] və məruzəsi hüsn-rəğbətlə dinlənərək lazım və mümkün olan qədər kömək vəd edilmişdir.

## "MÜSAVAT"DA

**Şuşadan teleqraf**

Şuşadan Türk Ədəmi-Mərkəziyyət firqəsi tərəfindən "Müsavat"a böylə bir teleqraf varid [daxil] olmuşdur:

Zəngəzur çölləri bir Kərbəla səhrasına dönmüşdür. Müsəlman çocuqları və üryan bacılarımız kollar dibində məskən etmişlərdir. Qaçqınların yarıdan çoxu darülbəqaya rəhlət etmişlərdir [axirət dünyasına köçmüşlər]. Bir çox müsəlman köyləri erməni kəndləri ilə əhatədə olub, aclığından can verirlər. Ya sülh ilə və yaxud qılınc ilə bu işi itmama yetirməli [sona çatdırmalı]. Amandır, millət yandı, əlac!

*Nümayəndə: Mustafa bəy Əlişbəyov*

**Salyandan teleqraf**

Çoxdan bəri Salyan və Lənkərandan Azərbaycandan taxılın dişarı çıxarılması haqqında bir çox şikayətlər vürud etməkdədir [gəlməkdədir]. Nəhayət, yerli əhali mütəşəkkil mübarizəyə məcbur olmuşdur. Böylə ki, Salyandan bu gün "Müsavat"a böylə bir teleqram varid [daxil] olmuşdur:

Taxılın Azərbaycan məmləkətindən mümaniətsiz [maneəsiz] Ermənistana, Gürcüstana və İrana ixrac edilməsi haqqında fövqəladə iclas müzakirəsində məlum olmuşdur ki, işbu ixracın sayəsində taxıl nəinki bahalanır, hətta gələcəkdə aclıq və qəhətliyə bais olacaqdır. Binaənileyh [ona görə], müttəhidülrəy qət olundu [yekdilliklə qərara alındı] ki, taxılın ixracı qətiyyən qadağan edilməsini hökumətdən istida [xahiş] etməyi mərkəzi firqədən iltimas edilsin.

*"Müsavat" firqəsinin nümayəndəsi: [Əbdüssalam] Səmədov*

## AZƏRBAYCANDA

**Lənkəranda**

Türk Ədəmi-Mərkəziyyət "Müsavat"ın Lənkəran şöbəsinin bu günlərdə iclası olub, bir çox məsələlər məhəlli-müzakirəyə qoyulmuşdur. Bunlardan ən əhəmmi [əhəmiyyətlisi] bunlardır:

1) Şöbənin aldığı məlumata görə, əcnəbilərin əllərində olan ləvazimati-hərbiyyəni [hərbi ləvazimatı] hökumətə təslim edilməmək üçün gecələr şəhərdən kənara çıxarıb qismən dənizə atırlar. Bunun önünü almaq üçün xəfiyyə rəisinə işbu xüsusda xəbər verməklə bərabər, Xəfiyyə İdarəsində bəzi mənsəblərinə müvafiq olmayan əşxasın [şəxslərin] xidmətdən ixrac edilməsini xahiş etməyə qərar verilmişdir.

2) Şəhərdə olan dəmiryola lazım əşyanın toplanıb mühafizə olunması təhtiqərara alınmışdır.

3) Telefon və teleqraf xətlərinin bəzi küçələrdə və ətrafda qırılarkən tökülüb pamal olması [ayaq altında qalması] münasibətilə posta rəisinə və vali cənablarına işbu əşyanın toplanıb mühafizə edilməsi üçün tədabir ittixaz edilməsi [tədbirlər görülməsi] firqə naminə tələb edilməsinə qərar ver[il]mişdir.

4) Hökumət kənd füqərayi-kasibəsini cəbrən götürüb haqsız və muzdsuz işlətdikdə, biçarələr neçə günlərlə gəlib şəhərdə heyvanları və arabaları ilə belə ac-susuz qaldıqları cəhətcə, bundan sonra kəndlilərin biyara [məcburi və müftə işə] gətirilməsinin mən' [qadağan] edilməsi haqqında vali həzrətlərindən müavinət diləmək qət edilmişdir [qərara alınmışdır].

5) İran və Azərbaycan hökumətinin sərhəd mühafizə əsgərləri olmadığından, sərhədlərdə iğtişaş və dürlü məfsədət [fəsadlar] zühura gəldiyinə görə, gələcəkdə hürriyyət və istiqlalın əksinə bəzi işlər əmələ gələ bilər. Binaənileyh [ona görə], bu xüsusda Bakı mərkəzi heyətindən təşəbbüsati-lazimə icrası üçün tədabir ittixazı təklif edilməsi[ni] təhtiqərara almışlardır.

6) Boladı kəndinin camaatı xanlar[ın] onlara etdikləri zülümlər xüsusunda verdiyi ərizə üzərinə təhqiqat yapmaq üçün Boladı kəndinə Parlaman üzvü Hacı Mirzə Səlim Axundzadənin göndərilməsi xüsusunu Məclis təhti-qərara almışdır.

7) Girdəni camaatının xanlar tərəfindən kəndçilərə edilən zülümlər xüsusunda verdiyi ərizəyə baxılıb qət olunmuşdur ki, təhqiqat yapmaq üçün Parlaman üzvü Mirzə Səlim Axundzadə cənabları Girdəniyə göndərilsin.

**Lənkərandan**
**Hərbi idarə**

Hər dövlətin, yaxud hər millətin yaşayışı, davamı, səbatı o millətin hərbi idarəsinin və ordusunun münzəm [nizamlı] olduğundan asılıdır.

İştə hər dövlət və millət üçün şu nemət-üzma [böyük nemət] qanuna müvafiq tənzim olmuş olsa, o dövlət və millət ölməz. Bəlkə, həmişə diri və müqtədir və özgələrə ağa və hökmran olar. Məhv, fəna [yox] və müzməhil [puç] olmaz.

Şu münasibətlə düvəli-müəzzəmə [böyük dövlətlər], yaxud miləli-mütəməddineyi-aləm [dünyanın inkişaf etmiş millətləri] gün-gündən hərbi idarələrinin tərəqiyyat və ixtiraatında [ixtiralarında, yeniliklərində] mafövqəladə [görünməmiş, qeyri-adi] kuşiş [çalışma, fəaliyyət] və səyləri vardırlar. Bu nöqteyi-nəzərlə düvəli-aləmdə [dünya dövlətlərində] millət kəndi hökumətini istər müharibə zamanında, yaxud sülh vaxtında ordunu dua edəndə silahını da dua edərlər.

Demək, dövlətin, millətin səadəti, davamı, səbatı orduya və silaha bağlıdır. Hər dövlətdə və millətdə bu şiveyi-mərziyə məmul isə [bu xoşagələn iş yerinə yetirilirsə], o dövlət və millət xoşbəxt, sərəfraz, sərbülənd [başıuca] yaşar. Hər dövlətdə, millətdə bu səadət, bu nemət yox isə, o dövlət və millət get-gedə fəna, məhv və müzməhil olar.

Bu ünvanat, bu tövzihat bədihiyyatdandır [bu düsturlar, bu izahlar öz-özlüyündə aydındır]. Lakin məsələnin bəlli özü bizim yeni təsis və təşkil olunmuş Azərbaycan hökuməti-cümhuriyyəsində məşhud olunur [görünür].

Əsgərlik, yaxud ordu təşkili çox gözəl, çox məmnuniyyətlə qarşılanır. Azərbaycanın hər yerində (xassətən [xüsusilə] bizim Lənkəranda) artıq dərəcə məmnuniyyət və rizaiyyət ilə [razılıqla] keçinir.

Əlavə olaraq, Lənkəranda hazır olan ordunun tərtibatı və tənzimatı tərifin mafövqündədir. Əsgərlərin əhvali-ruhiyyəsi yüksək, gündə iki dəfə təlim və tərbiyə almağı və əsgərlərin xurd-xörəyi [yemək-içməyi] ibarət olsun həftəlik yeməkdən, bozartma, bozbaş, qovurma, şilov, plov, dovğa, küftə. Rusiyanın böyük həşəmətli imperatoru Nikolayın əsrində saldatlara bu növ yemək verilməyirdi.

İştə bu nədən nəşət edir [irəli gəlir]?

Lənkərana təzə təyin olunmuş batalyon komandiri Səməd bəy Rəfibəyov Gəncəlinin şəxsi kifayət, təcrübə və kardanlığından [iş bilənliyindən] tülu edir [əmələ gəlir]. Yəni bu zat baxod [şəxs özü] bittəb [şübhəsiz] hərbi işlərə dara [vaqif], təcrübəkar bir vücud olduğundan, əsgərliyin hər bir işinə, nöqtəbənöqtə vaqif və böyük məlumata sahib bir zabitdir; o gündən ki Lənkərana təyin olunub, hərbi idarələrini və əsgərlərin işini günügündən münzəm və mürəttəb [nizamlı və qayda-qanunlu] edibdi.

Lənkəranda hökumətin sair idarələri də hərbi idarəsi kimi təşəbbüsati-mücəddidanəyə [yenilikçi təşəbbüslərə] girişsələr, çox yaxşı olardı, "in tifl yek şəbə rəhi-sədsalə mirəvəd" misrasının təhtinə [altına] daxil olardı əminik.

Böyük Allah müvəffəq etsin.

Yaşasın Azərbaycanın namuslu, qəhrəman zabitləri!

*Mirzəağa Əliyev*

**Qarabağdan**

Bakının düşmənlər əlindən istirdadı [geri alınması] münasibətilə eylülün 15-ni bayram saxlamağı mütəzəmmin [ehtiva edən], "Müsavat" Mərkəzi Komitəsindən gələn teleqrafa görə, şəhri-məzkurun [deyilən ayın] 14-cü günü "Müsavat" şöbəsi bütün hökumət və camaat idarələrinə eyd [bayram] saxlanacağı və məscidi-camedə Azərbaycan paytaxtı Bakının fəthi qəhrəmanları ruhuna fatihəxanlıq olacağı [fatihə oxunacağı, dua ediləcəyi] haqqında birər dəvətnamələr göndərdi.

Ertəsi günü Şuşa Realnı məktəbi müdirinə göndərilmiş məktub mövcibincə [məktuba əsasən], məktəb musiqi dəstəsi Birinci İbtidai məktəbdə hazır bulunurdu. Və oradan ibtidai məkatib [məktəblər] mütəəllim [şagird] və müəllimləri səf-bəstə olaraq [sıraya düzülərək] cameyi-şərifə doğru hərəkət etdilər.

Başda Qarabağ general-qubernatoru olmaq üzrə bütün sahib-mənsəblər və şəhərin üləma və ürəfası [ruhaniləri və başbilənləri] məclisdə idi.

Əvvəlcə məclisi Mirzə Cəlal Yusifzadə cənabları açaraq, Bakının istirdadı yolunda türk millətinin nə qədər qanlar tö-

kərək fədakarlıq göstərdiklərini və istiqlaliyyətimiz yolunda nə kimi vəsait və əsbaba [vasitələrə və səbəblərə] möhtac olduğumuzu bəliğ [bəlağətli, açıq, təsirli] bir nitqlə bəyan buyurub, hazirunu [orada olanları] bu eyd münasibətilə “Müsavat” firqəsi namından təbrik etdi.

Ondan sonra Rəşid Yusifzadə nitqə başlayaraq, istiqlaliyyətimizin dəvamibəqası [əbədi olması] üçün əsgər və maarifə ehtiyacımız olduğunu qeyd və Qarabağ Müəllimləri İttifaqı tərəfindən hazirunu təbrik etdi.

Üçüncü olaraq, general-qubernator Xosrov bəy Sultanov cənabları nitqə başlayaraq, hökumətimizin əsası ədalət və hürriyyət üzrə olduğundan və ancaq bundan dolayı hökumətimizin daimi olaraq vətəndaşları yekdil, yekcəhət edərək müstəqil yaşaya biləcəyini və müstəqil yaşamaq üçün də qüvveyi-əsgəriyyəyə [hərbi gücə] istinad etmək lazım gələcəyini və o cəhətlə də əhalinin şimdiyə qədər olduğu kimi, bundan sonra da hökumətə yardımda bulunacaqlarını qeyd və hazirunu təbrik etdilər.

Dördüncü olaraq, şəhərimiz üləmasından [ruhani alimlərindən] Ağa Əbdürrəhim Müctəhidzadə cənabları bəliğ bir xütbə [təsirli bir nitq] ilə başlayaraq, ədalət və müsavat üzrə qaim olan bir hökumətin daimi olaraq yaşayacağını dəliliəqli və nəqli ilə [əqli və nəqli dəlillərlə] isbat etdilər.

Ondan sonra şəhərimizdə səfəri [səfərdə] olan Azərbaycan Məclisi-Məbusanı əzasından [üzvlərindən] doktor Bəhram bəy Axundov kəndisini məclisə təqdim edərək, keçən sənə Bakının istirdadı zamanında Bakıda olduğundan, orada düşmən içində yaşamağa məcbur olan əhli-islamın əhvalını gərəyincə təsvir etdi və şəhər fəth olunduqdan sonra əhli-islamın əvvəlcə düçar olduğu fəlakət və azara baxmayaraq, əcnəbilərlə həman qardaşcasına yaşamağa başladığını və şimdi də yaşamaqda olduğunu qeyd etdi.

Bundan sonra şühədanın [şəhidlərin] ruhuna Quran tilavət olunaraq [Quran oxunaraq] fatihəxanlıq mərasimi ilə xətm olundu. Camaat məsciddən çıxaraq musiqi dəstəsi ilə şəhəri dolaşaraq, axşama qədər bazar-dükan qapalı olduğu halda bayram saxladı.

*Yeni müəllim*

## GÜRCÜSTANDA

### İqtisadi heyət

Gürcüstan Xariciyyə naziri müavini Sabaxtaraşvili başda olmaq üzrə İtaliyaya gedəcək Gürcüstan iqtisadi heyəti oktyabrın 3-də Batuma azim olub [yola düşüb], oktyabrın 5-də isə İtaliya vapurunda Batumdan Romaya hərəkət edəcəkdir. Heyət 9 nəfərdən ibarət olub, iqtisadi məsələlər haqqında bir çox mühüm sənədlər aparmaqdadır. Məzkur [deyilən] heyətin əzimətini [gedişini] hüsn-təvəccöhlə qarşılayan İtaliya əsgəri heyəti Gürcüstan heyətinin əzimətini İtaliya hökumətinə teleqrafla xəbər verib, məzkur heyətə hər cür müavinət göstərilməsini xahiş etmişdir.

### Heydər Bammatovun vürudu [gəlişi]

Parisdə olan Dağıstan heyəti üzvü Heydər Bammatov Tiflisə varid olmuşdur [gəlmişdir].





## ERMƏNİSTANDA

Eylülün 6-da vürud edən [gələn] teleqraflardan anlaşılır ki, Ermənistan dəmiryolları idarə və təsisatı amerikalılar əlinə keçmişdir. Vaqon, parovoz və başqa yol ləvazimatı Ermənistan üçün Amerikadan gətiriləcəkdir. Ermənistana ixtiyar verilmiş ki, mürur ilə [vaxt keçdikcə] yolları rəhndən qurtarsınlar.

### General Harbord İrəvanda

Eylülün 29-da gündüz saat 3-də general Harbord İrəvana vürud etmişdir [gəlmişdir]. Generalı Ermənistan Heyəti-nüzzarı [Nazirlər Kabineti] [Aleksandr] Xatisov başda olaraq, Amerika, İngiltərə, Fransa, Gürcüstan və Azərbaycan siyasi nümayəndələri Zəngi körpüsündə istiqbal etmişlər [qarşılamışlar]. General rəsmi-keçidi qəbul etmiş və saat 5-də Hökumət rəisi və Hərbiyyə naziri ilə görüşmüşdür. Eylülün 30-da general Harbord Xatisov ilə müsahibədə bulunmuş və həman gün şərəflərinə ziyafət kəşidə edilmişdir [verilmişdir]. Təşrini-əvvəlin [oktyabrın] birinci günü Ermənistan Heyəti-nüzzarı ilə generalın üç saat qədər müşavirəsi olmuşdur. Ermənistan idarəsi məsələsi hərtərəfli müzakirə edilmişdir. Hökumət rəisi generala Ermənistan övzasını [vəziyyətini] təsvir, xəritə və statistikini tərsim [rəsm] edərək, təhriri [yazılı] böyük müxtirə [məlumat] təqdim etmişdir. Həman müxtirəni 50-yə qədər mütəxəssislər iki həftə zərfində hazır etmişlər imiş.

### Ermənistan Daxiliyyə nazirinin cavabı

Ermənistanda müsəlmanların qətliam edilməsindən dolayı Erməni İctimaiyyuni-İnqilabiyyun firqəsinin [Sosialist İnqilabçılar partiyasının] Parlaman fraksiyonu tərəfindən erməni hökumətinə sorğu verilməsini qəzetəmizin irəliki nömrələrində dərc etmişdik. Şimdi də Ermənistan Daxiliyyə nazirinin məzkur [deyilən] fraksiyona verdiyi cavabı bərayi-məlumat bilaqeyd ənzari-qareinə vəz ediriz [məlumat məqsədilə, şərhsiz, oxucuların diqqətinə təqdim edirik]:

*“Eçmiədzin və Sürməli dairələrində əsəfəngiz [təəssüflü] hadisələr vüqu bulmadadır. Uluxanlı altındakı Minlər, Aqulis [Əylis], Naxçıvan və Zəngəzur dairələrində ermənilərə edilən təəddilər [zülümlər] haqqında müxalifətçilərin sükut ixtiyar etməsinə təəccüblər edirəm.*

*Sizin arzunuz əsassızdır. Siz istəyirsiniz ki, müsəlmanlar içində təbliğat yapasınız. Fəqət səhv edirsiniz.*

*Zəhmətkeş müsəlmanlar mənafeyinin müdafeyi [müdafiəçisi] siz deyilsiniz, bizik. (?) Hadisatın əsrarını [sirrini] təktək hadisələrdə, Böyük Vedidə arayanınız yəqin etmişdir ki, Ermənistanda yaşayan müsəlman əhalisinin əksəri xarici təbliğata uyaraq dövlətimiz əleyhinə gedir və bizə intriqa yapır. Əlimizdə bütün vəsiqələr vardır ki, İrəvanı işğal etmək üçün tədbirlər görülmüş və o niyyətlə Marqar körpüsünü partladaraq, eyni zamanda Eçmiyədzin, Sürməli, Zəngibasar dairələrində iğtişaş qaldırmaqla İrəvanı mühasirə edərək bir qaç saat içində şəhəri zəbt etmək istəmişlərdir. Bütün bu intriqaları görüb onlara qarşı qəti tədabir ittixaz etməməkdə [tədbirlər görməkdə] hökumətin müqəssir olduğu doğrudur.*

*Eçmiyədzin dairəsi müsəlmanları iki hissəyə ayrılmışlar. Üsyan tərəfdarları*

*qadınları, çocuqları və maməlakləri [mal-dövlətləri] ilə qorxusuz yerlərə keçərək Arazın o biri sahilində toplanmış, İğdır üzərinə və Qaraqalın körpüsünə hücum etməyə başlamışlardır. Dəmiryolu xətti də təhdidat altında bulunmuşdur. Hökumət bu dairəyə kömək etməmiş və düşmənin təzyiqatı altında mütəəddid [çoxsaylı] erməni qəryələri [kəndləri] təxliyə edilərək Eçmiyədzin mövqifi [stansiyası] abluka qarşısında qalmışdır. Eçmiyədzin mövqifi altında hazır qüvvələrimizlə mübarizə etmək lazım gəlir. Qəza komissarı kəndi dairəsini düşməndən müdafiə üçün oralardakı qaçqınların həpsini geri qaytarmış və sonra 4305 müsəlman qaçqın, qadın, çocuqlarını salamat olaraq Qoça göndərmiş və kəndi milisiyası ilə Eçmiyədzin mövqifini müdafiəyə başlamışdır. Bunların həpsini Haskel də görüb bilmişdir. Zira o zamanlar Eçmiyədzin mövqifinə vürud etmişdir [gəlmişdir].*

*Bu hadisələri ətraflı tədqiq etmək üçün hökumət kəndi nümayəndəsini göndərmişsə də, məzkur müsadimə [deyilən toqquşma] davam etməsindən dolayı Kürdüklüdən o tərəfə keçəmməmişdir. İki Parlaman üzvü də göndərilmişdir. Onların bəyanatına görə, bir qaç adam həbs edilmişdir.*

*Bu məsələni Amerika Komitəsi də təhqiq etmiş və onların müvəkkili Ford teleqraf etmiş ki: "Eçmiyədzin qəzasında işi tədqiq etdim, komissar Calalyansdan edilən şikayətlərə baxdım və onun hadisatda müqəssir olmadığını öyrəndim." Hökumət də həman bu rəyə gəlmişdir.*

*Hökumət Amerika Komitəsi ilə birlikdə talan edilmiş xəsarətdidələrin [zərərçəkənlərin] əşyasını aramaq, qaçqınları yerlərinə qaytarmaq üçün tədabir ittixaz etmiş [tədbirlər görmüş], hökumət müsəlman demokratiyasını müdafiə üçün hər bir tədbir də görür. Fəqət düşmənləri silah qüvvəsi ilə də olsa, cəzalandırmadan çəkinməyir.*

*On gün irəli xəbər alınmış idi ki, Sürməli dairəsinə ümum hücum hazırlanır. Təəccüb burasıdır ki, müəyyən saatda 597 yüksəkliyinə hücum başlanır. Ertəsi günü xəbər yetişir ki, Daşıkdalına hücum edilmiş. İğdırı təxliyə etmək məsələsi qalxır və şəhər bağlarında müharibə hərəkatı vüqu bulur. Daşburuna, Dovşanlı, Mələkli, Qaraqoyunlu qəryələrinə [kəndlərinə] təərrüz yaparaq [hücum edərək] İğdıra tərəf yürüyürlər.*

*Onlara kömək olaraq hökumət qoşunları göndərilir. Mümkündür ki, bu müsadimələr [toqquşmalar] əsnasında bir qaç müsəlman qəryələri də xəsarətdidə olmuşlar.*

*İttixaz edilən tədabir sayəsində məmləkətin övzası [vəziyyəti] mürur ilə [vaxt ötdükcə] yaxşılaşır."*

İctimaiyyuni-İnqilabiyyun firqəsindən Tumanyan deyir ki:

*"Hökumət başqa dövlətlərin əfali-zəmiməsinə intisal etməməlidir [mənfi əməllərini nümunə götürməməlidir]. Edamdan saqınaraq, cari qanunlarla iş görməlidir. Bizim bədbəxtliyimiz hələ ondadır ki, cinayətkarlar azadə olaraq soqaqlarda gəzinirlər.*

*Mən zənn edirdim ki, Daxiliyyə naziri kəndi təqsirini etiraf edər və əfkari-ümumiyyə [ictimaiyyət] də sakitləşər. Lakin bunun əvəzinə o, kəndisini müdafiə etmək üçün bizim fraksiyonu zəmm edir [pisləyir]. O, hətta erməni əhalisi qətliam edilərsə, İctimaiyyuni-İnqilabiyyun fraksiyonunun sorğu verməsinə də şəkk edir."*

(Daxiliyyə naziri tərəfə üzünü çevirərək deyir: "Eyib olsun sizə, cənab nazir.")

*"Daima gürcü millətçiləri və "Müsavat" firqəsi bəyləri ilə mübarizə edən İctimaiyyuni-İnqilabiyyun firqəsi deyilmi idi? Bizim yoldaşlar tərəfindən Bakının qəhrəmananə müdafiəsini xatirlərinizə gətiriniz. Biz hər yerdə olur-olsun, daima əqəliyyətin [azlığın] tərəfdarı olub, onlara edilən təcavüzata etiraz etmişik. Hərgah siz firqəçilik təsəvvüratı ilə həqiqəti kətmə [gizlətməyə] çalışırsınızsa, çox eyib olsun sizə.*

*Nazir Türkiyə agentələri fədası olan meyitlər barəsində söylədi. O meyitlər bizim üçün qiymətlidir. Lakin onlar Axta dairəsində mütəəddid [çoxsaylı] müsəlman qəryələrinin təxrib edilməsinə bəraət verə bilərmi? Marka[r] körpüsü məsələsi Dzeqvi körpüsü fəqərəsini [hadisəsini] bizim xatirimizə gətirir. O zaman iki erməninin hərəkətini bütün erməni millətinə bağlamaq istəyirdilər.*

*Yanvarın 5-də Gürcüstan ermənilərinin təqib edilməsini xatırlasanız, o zaman gürcü millətçiləri "ermənilər Tiflisi zəbt etmək istəyirlər" deyə kəndilərini müdafiə edirdilər. İrəvanı zəbt etmək planları da həman bir öylə işdir. Mən təəccüb edirəm ki, neyçün müsəlmanların İrəvanı zəbt etmək planları barəsində nazir əfəndi öz vaxtında Parlamanda məlumat verməmişdi? Nə səyaq oldu ki, birinci nömrəyə səs verən sizin rəfiqləriniz müsəlmanlar şimdi dövlət düşməni oldular?*

*Biz bu rəydəyiz ki, hərgah hökumət bu övza [vəziyyət] içindən təmiz çıxmaq istəyirsə, bu fəcayeyə [faciələrə] intəha [son] verib müqəssirləri cəzalandırmalıdır."*

Bir çox natiqlərdən sonra Daşnaksütyun firqəsi tərəfindən təklif edilən qərar qəbul edilib, Daxiliyyə nazirinin izahı kafi hesab edilir.

İctimaiyyuni-İnqilabiyyun fraksiyonu atideki [aşağıdakı] qərarı təklif etmişdir:

*"Daxiliyyə nazirinin izahını istema edərək [dinləyərək], İctimaiyyuni-İnqilabiyyun firqəsi kəndi nifrətini izhar edir və izahı qeyri-kafi hesab edərək növbədəki işlərə keçir."*


**ELANLAR**

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Doktor**
**M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək. Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Doktor Əliheydər Allahverdiyev**

Naxoşları qəbul etməyə başlamışdır. Hər gün səhər saat 8-dən 9-adək, axşam saat 4-dən 7-yədək. İçəri şəhər Bolşoy Minaretski küçə, nömrə 1. Bağın qarşısında. Telefon nömrə 36-21.

*9051*

**Berlin Darülfünunu doktoru N. Melkumyan[s]**

Daxili, zöhrəvi, sifilis, "606" və "914" müalicələrini qəbul edir hər gün səhər saat 8-dən 12-yədək, axşam saat 4-dən 7-yədək.

Ünvan: Voronsovski küçə, nömrə 9-11. Kolyubakinski küçənin küncündə. Telefon nömrə 34-34.

**Berlin Darülfünunu doktoru S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları. Qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri.

Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*4051*

***Müdir: Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Qismi-rəsmi**

səh. 109. "20 eylül [1]335": burada tarix rumi təqvimlə göstərilmişdir; miladi təqvimlə 20 sentyabr 1919-cu ilə uyğundur.

**Rusiya əhvalı**

səh. 112. "ələlamya": bu söz əslində "koru-koruna" mənasına gəlir; fəqət belə görünür ki, məqalə müəllifi burada "ümumiyyətlə" mənasında işlətmişdir.

"Hər tərəf güştə şəvəd mənfəəti-islam əst": "Hansı tərəfdən ölən olsa, islamın xeyirinədir." (farsca)

**Teleqraf xəbərləri**

səh. 113. "Proskurov": Ukraynanın qərbində şəhər; indiki Xmelnitski şəhəri.

**Sülh xəbərləri**

səh. 115. "Bəyaz kitab": müxtəlif sənədləri ehtiva edən rəsmi nəşr.

**Türkiyədə**

səh. 116. "Jurnal d'Orient": [Le journal d'Orient]: İstanbulda fransız dilində nəşr edilən qəzet.

səh. 117. "Köylü": İzmirdə (Türkiyə) nəşr edilmiş qəzet.

"Tan": 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik "Le Temps" qəzeti nəzərdə tutulur.

səh. 118. "müsyö Klemansonun dinləmək istəyəcəyinə": qəzetdə "istəyəcəyinə" yerinə "istəməyəcəyinə" getmişdir.

**Yeni Şirvan cəmiyyəti-alisinə**

səh. 121. "3) Şəhərdə darülmüəllimin...": 3 və 4-cü maddələr qəzetdə 4 və 5 kimi getmişdir.

**Nəsib bəy həzrətlərinin istefası ətrafında**

səh. 121. "1335 18 eylüldə": burada tarix rumi təqvimlə göstərilmişdir; miladi təqvimlə 18 sentyabr 1919-cu ilə uyğundur.

**Azərbaycan haqqında tarixi, ədəbi və siyasi məlumat**

səh. 124. "sosializmin parlaq şəfəqləri": qəzetdə "şəfəqləri" yerinə "səqfləri" getmişdir.

"Vilhelm padşah": 1888-1918-ci illərdə hakimiyyətdə olmuş Almaniya imperatoru II Vilhelm nəzərdə tutulur.

"Napoleon": 1804-1814-cü illərdə və 1815-ci ildə Fransa imperatoru olan I Napoleon nəzərdə tutulur.

"Sant Helen" (yaxud Müqəddəs Yelena; Saint Helena): Atlantik okeanında vulkanik ada. Napoleon 1815-ci ildə bu adaya sürgün edilmiş və 1821-ci ildə orada ölmüşdür.

**"Ölkəm" şeiri (səh. 125) üçün lüğət:**

badi-xəzan: xəzan yeli
zülmi-zalım: zalımın zülmü

**Azərbaycanda**

səh. 129. "in tifl yek şəbə rəhi-sədsalə mirəvəd": "bu uşaq bir gecədə yüz illik yol gedir" (farsca)

səh. 130. "dəlili-əqli və nəqli": "əqli" – ağıla əsaslanan; "nəqli" isə – nəql edilməklə öyrənilən, rəvayətə əsaslanan deməkdir və bu iki söz bir-birinin ziddi kimi işlədilirdi.

**Ermənistanda**

səh. 131. "Zəngi körpüsü": İrəvanda, Zəngi çayı üzərində salınmış, hal-hazırda dağılmış vəziyyətdə olan qədim körpü; Qırmızı körpü də deyilir. Qəzetdə "Zəngin körpüsü" kimi getmişdir.

səh. 133. "Axta": qəzetdə "Axtı" kimi getmişdir.

"Dzeqvi körpüsü": Gürcüstanda, Dzeqvi kəndi ərazisində, Kür çayı üstündə salınmış körpü.





**Cümə, 10 oktyabr 1919-cu il, nömrə 292**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 15 məhərrəmül-haram sənə 1338. 10 təşrini-əvvəl 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 2 manat 50 q.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Səlimə xanım və uşaqları Mirzəağa və Əliağa kamali-yəs və təhəssürlə [böyük bir kədər və həsrətlə] öz qövm-əqrəbalarına və dost-aşnalarına əziz və sevgili olan əvvəlincinin əri və ikincilərin atası **Məşhədi Qasımovun** zalım əlində fəcianə [faciəvi] bir surətdə qətl edildiyini xəbər verirlər. Mərhumun təşyiyi-cənazəsi [cənazəsinin yola salınması] həmin oktyabr ayının 10-da, səhər saat 10-da, Aziatski küçədə, 54 nömrəli evindən Qasımbəy məscidinə aparılacaqdır.

*11439*

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Güştasb və Rüxtər Qasımovlar kamali-yəs və təhəssürlə [böyük bir kədər və həsrətlə] öz qövm-əqrəbalarına və dost-aşnalarına əziz və sevgili qardaşı **Məşhədi Qasımovun** zalım əlində fəcianə [faciəvi] bir surətdə qətl edildiyini xəbər verir. Mərhumun təşyiyi-cənazəsi həmin oktyabr ayının 10-da, səhər saat 10-da, özünün Aziatski küçədə, 54 nömrəli evindən Qasımbəy məscidinə aparılacaqdır.

*11440*

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Abbasəli Əliyev kamali-yəs və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına əziz və sevgili bacıoğlusu **Məşhədi Qasımovun** zalım əlində fəcianə bir surətdə qətl edildiyini xəbər verir. Mərhumun təşyiyi-cənazəsi həmin oktyabr ayının 10-da, səhər saat 10-da, Aziatski küçədə, 54 nömrəli evindən Qasımbəy məscidinə aparılacaqdır.

*11441*

## SİRK "MODERN"

Cümə günü oktyabrın 10-nda 1919-cu ildə təzə gələn artist və artistkaların qastrolu olacaqdır. Məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə təşkil edilmiş Fransa güləş mübarizəsinin mabədi.

Bu gün 3 cift pəhləvan mübarizə edir. Pəhləvan İnkoynonun tələbinə görə 3 min bəxşiş.

1-nci: Qara Maska – Naməlum.

2-nci: İran güləşi Gənc Əli – Oleynikov.

3-ncü: Boqatıryov – Əhmədov.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də, qurtaracaq 12-də. Mü-